**UOT 81**
**https://doi.org/10.59849/2311-8482.2025.1.80**

**ELÇİN İSMAYILOV***

# QƏRBİ AZƏRBAYCANIN COĞRAFİ MÖVQEYİ, TARİXİ SİYASİ İNKİŞAFI VƏ YURD ADLARI

*Qədim dədə-baba torpaqlarımız olan Qərbi Azərbaycan ərazilərinin toponimlərinin tədqiqi bu gün ən aktual mövzulardandır. Yer-yurd adlarını, onların etimologiyasını öyrənmək üçün mütləq şəkildə toponimlərin mənsub olduğu ərazinin coğrafi mövqeyini, tarixi-siyasi inkişafı dinamikasını mükəmməl bilmək lazımdır. Məhz bu səbəbdən də toponimləri dilçilik prizmasından araşdırmaq üçün coğrafi və tarixi faktlara mütləq şəkildə müraciət etmək albüddür.*

*Yurd adları Qərbi Azərbaycan ərazisindəki çoxsaylı şəhər və kəndlərin adları, regionun uzun və zəngin tarixini əks etdirir. Bu yurd adları, ərazinin türk-müsəlman mədəniyyətini, eyni zamanda həm də burada yaşamış müxtəlif xalqların izlərini özündə daşıyır. Lakin, sovet dönəmində və xüsusən də müasir dövrdə bir çox bu adlar dəyişdirilmiş və yerinə erməni dilində olan adlar qoyulmuşdur.*

**Açar Sözlər:** *qərbi, yer, yurd, Azərbaycan, coğrafi, siyasi.*

## Giriş

Qərbi Azərbaycan ərazilərindəki yer-yurd adlarının araşdırılması birbaşa həmin ərazilərin coğrafi, siyasi vəziyyəti ilə sıx bağlıdır. Müasir dövrdə "Qərbi Azərbaycan" termini yalnız coğrafi bir məfhumu deyil, həm də tarixi ədalət, mədəni irsin bərpası mövzularında siyasi və hüquqi müzakirələrdə mühüm yer tutur.

Qeyd edək ki, Qərbi Azərbaycan anlayışının müasir dövr kontekstində daha da önə çıxmasının səbəbi həmin ərazilərdəki Azərbaycan xalqının mədəni və tarixi izlərinin silinməsi və erməni millətçiləri tərəfindən bu torpaqlarda keçirilən sistematik etnik təmizləmə siyasətidir. Bu torpaqlarda yaşayan milyonlarla Azərbaycanlı 20-ci əsrin əvvəllərində öz yurdlarından qovulmuş və qaçqın vəziyyətinə düşmüşdür. Hazırda da, Azərbaycan Respublikasının beynəlxalq müstəvidə həyata keçirdiyi siyasətlər və təşəbbüslər Qərbi Azərbaycan torpaqlarından etnik təmizləməyə məruz qalan Azərbaycan xalqının öz tarixi torpaqlarına qayıtmaq haqqının bərpasının hüquqi baxımdan vacib olduğunu vurğulayır.

## Əsas məzmun

Beləliklə, Qərbi Azərbaycan adı sadəcə bir coğrafi yer adı deyil, həm də bir xalqın, bir millətin tarix boyunca yaşadığı və bu günə qədər itirdiyi torpaqlarda yaşamaq hüququnun bərpası üçün mübarizəsinin simvoludur. İlk növbədə, XIX əsrin başlanğıcına qədər ermənilərin Cənubi Qafqaza köçürülməsi ilə bağlı tarixi dövrü araşdırmağa başlamazdan əvvəl, üzərində yaşadığımız bu torpaqların tarixini dərindən incələmək böyük əhəmiyyət kəsb edir. Çünki əgər biz qədim tarixi mənbələri diqqətlə nəzərdən keçirsək, türk xalqlarının Qafqazda uzun əsrlərdir mövcud olduğu və bu varlığın miladdan çox öncəki dövrlərə, hətta minilliklər əvvəlinə dayandığı aydın olur. Bununla yanaşı, bir çox tarixçi Azərbaycan türklərinin bu regionda bir millət olaraq varlığını Selçuklu imperiyasının Azərbaycan torpaqlarına daxil olmasından sonra baş verdiyini iddia edirlər [2, s.429]. Onlar həmin dövrlərdə türk əhalisinin təkcə hərbi və siyasi təsirini deyil, həm də etnik kimliyinin daha çox formalaşaraq genişləndiyini vurğulayırlar. Qeyd etmək vacibdir ki, ərəb, fars, türk, gürcü və hətta erməni mənbələri üzərində aparılan tədqiqatlar türk xalqlarının Qafqazda min illər öncə var olduqlarını ortaya qoyur. Bu faktı bir çox tarixçi mənbələri, eləcə də qədim daşlar üzərindəki təsvirlər mükəmməl şəkildə sübut edir. Gürcü tarixçisi Leonti Mroveli eradan əvvəlki dövrlərə aid olan tarixlərdə türk xalqlarının Qafqazda mövcudluğunu təsdiq edən möhkəm dəlillərlə qarşılaşdığını öz əsərlərində vurğulayır. O, xüsusilə, eradan əvvəl. IV əsrə aid tarixdə yazılmış mətnlərdə qeyd edilənləri belə şərh edir: "Buntürkler, digər bir deyimlə, Turanlılar, Fars hökmdarı Keyhüsrevi öz sərhədlərindən qovub çıxarmaq üçün Xəzər dənizindən Kür çayı boyunca yuxarı doğru hərəkət edərək, 28.000 ailə ilə Mtshetaya gəldilər. Mtsheta Mamasahli və bütün Kartvellerin, yəni gürcülərin icazəsi ilə farslara qarşı mübarizədə onlara kömək edəcəklərinə dair verdikləri vəd ilə Buntürkler,

Mtshetanın qərbindəki bölgələrə yerləşdirildilər" [9, s. 35].

Erməni katolikosluğunun Qaraqoyunlu torpaqlarına köçürülməsindən sonra Qreqoryan kilsəsi müxtəlif üsullarla Azərbaycan türklərinə məxsus olan əraziləri ələ keçirməyə başlamış və zamanla ermənilərin bu bölgələrə köçü təşkil olunmuşdur. Lakin İrəvan bölgəsində ermənilər həmişə sayca azlıq təşkil etmişlər. XVI-XVII əsr dövrünə aid mənbələrə əsaslanaraq edilən araşdırmalar göstərir ki, Səfəvi-Osmanlı müharibələri zamanı İrəvan əhalisi öz torpaqlarını tərk edərək digər bölgələrə sığınmışdır. Bu vəziyyətdə erməni kilsəsi boşalmış əraziləri aşağı qiymətlərlə alaraq, Osmanlı torpaqlarından köç edən erməniləri bu torpaqlarda yerləşdirmişdir. Bu məsələlərə sübut olaraq, Matendaranda saxlanılan 1687-ci ilə aid çox önəmli bir sənəddə belə qeyd edilir: *"Biz ermənilər Azərbaycan türklərinə aid olan torpaqları ya satın alır, ya zəbt edirik, ya sahibinin əlindən alırıq, ya rüşvət verərək əldə edirik, ya hədiyyə kimi əldə edirik və ya da zorla ələ keçiririk"* [7, s.375].

Azərbaycanın Qaraqoyunlu dövləti (1410–1468) qurulduqdan sonra 1411-ci ildə Qərbi Azərbaycanı da öz ərazisinə qatdı. Bu dövrdə Qaraqoyunlu dövlətinin sərhədləri genişlənərək, Kür çayının cənubundakı Azərbaycan torpaqlarını, Şərqi Anadolu, Ərəb İraqı və Əcəm İraqını əhatə etdi. Qaraqoyunlu dövlətinin süqutundan sonra, 1468-ci ildə Ağqoyunlular (1468–1501) Qərbi Azərbaycanın hakimiyyətini ələ keçirdilər. 1501-ci ildə Səfəvi dövləti Ağqoyunlu dövlətinin varlığına son qoydu. 1502-ci ildə Qərbi Azərbaycan Səfəvi dövlətinin tərkibinə daxil oldu. Səfəvilər dövründə ölkədə bəylərbəyiliklər yaradıldı və mərkəzi İrəvan şəhəri olan Çuxursəd bəylərbəyi təyin edildi. Qeyd edək ki, bu bəylik haqqında rus və erməni müəlliflərinin əsərlərində də məlumat verilir. Erməni tarixçisi P. Arutyunyanın "XVIII əsrin I rübündə Ermənistan ölkəsində azadlıq hərəkatı" adlı əsərində Çuxursəəd bəylərbəyliyinin tarixi və Səfi Qulu xanın fəaliyyəti haqqında məlumat vermişdir [12, s. 10]. Bu dövrdə bəylərbəyliyin başçısı Səfi Qulu xan bölgənin siyasi və inzibati işlərində mühüm rol oynamışdır. Onun rəhbərliyi altında Çuxursəd bəylərbəyliyi Səfəvilər dövlətinin mərkəzi hakimiyyətinə sadiq qalaraq, bölgənin inkişafına və sabitliyinə töhfə vermişdir.

Oqtay Əfəndiyev qeyd edir ki, 1590-cı il İstanbul sülhü nəticəsində Səfəvilər dövlətinin bir sıra bölgələri, o cümlədən Çuxursəd bəylərbəyliyinə daxil olan İrəvan Osmanlı İmperiyasının tərkibinə daxil olmuşdur [4, s. 235]. Osmanlı dövründə İrəvan ərazisi "Rəvan əyaləti" adı altında tanınmış və Osmanlı İmperatorluğunun inzibati strukturuna daxil edilərək, burada dövlətin idarəetmə prinsipləri tətbiq edilmişdir. Bu dövr ərzində bölgənin idarə olunması və iqtisadi resurslarının dərin təhlili məqsədilə müxtəlif rəsmi statistik sənədlər hazırlanmışdır. Bu sənədlər arasında "Rəvan əyalətinin müfəssəl dəftəri", "Rəvan əyalətinin icmal dəftəri" və "Dəftəri-sicili-livayi-Rəvan" kimi mənbələr xüsusi yer tutmuşdur. Bu sənədlər Osmanlı dövlətinin tipik inzibati və vergi təşkilatı çərçivəsində hazırlanmış və bölgənin sosial, iqtisadi, demoqrafik vəziyyətini əks etdirən detallı məlumatları ehtiva etmişdir. Məsələn, əhalinin tərkibi, torpaq istifadəsi, vergi siyasətləri və digər iqtisadi fəaliyyətlər bu sənədlərdə yer almış, beləliklə, yerli idarəetmənin strukturu və əhalinin gündəlik həyatı ilə bağlı dəyərli məlumatlar əldə edilə bilmişdir. Həmçinin, bu rəsmi sənədlər, həm də yerli əhali ilə əlaqələr, sosial siniflər arasında münasibətlər, iqtisadi fəaliyyətin növləri və xüsusiyyətləri haqqında geniş təsəvvür yaratmağa imkan verir.

Osmanlı İmperiyasının ərazi idarəetməsi və bürokratik strukturu bu sənədlər vasitəsilə daha dərindən başa düşülə bilər. İrəvanın Osmanlı hakimiyyəti altına daxil olması ilə, bu regionun iqtisadi və sosial vəziyyəti, yerli idarəetmə strukturları və vergi sistemləri də dəyişmişdir. Bununla yanaşı, İrəvanın Osmanlı ərazisinə inteqrasiyası həm də əhali arasında müxtəlif etnik və dini qrupların birgə yaşaması və qarşılıqlı münasibətlərin tənzimlənməsi məsələlərini gündəmə gətirmişdir.

Z. Bünyadov və H. Məmmədovun 1996-cı ildə yazdıqları "İrəvan əyalətinin icmal dəftəri" adlı əsərdə Osmanlı dövründə İrəvan bölgəsi ilə bağlı mühüm və dəyərli məlumatlar təqdim olunur. Bu mənbə, yalnızca Osmanlı İmperatorluğunun idarəçilik sisteminin xüsusiyyətlərini əks etdirməklə kifayətlənmir, eyni zamanda bölgənin sosial-iqtisadi və etnik mənzərəsini də özündə canlandırır [6,s.4483]. Bu əsər həmçinin həmin dövrün inzibati və siyasi tarixini anlamaq üçün əvəzsiz bir qaynaqdır, çünki bu sənəd İrəvanın keçmişini aydınlaşdırmaq və müxtəlif sosial, iqtisadi və mədəni elementlərin qarşılıqlı təsirini araşdırmaq üçün dərin məlumatlar təqdim edir. Əsərdə təkcə İrəvan əyalətinə aid olan məlumatlar deyil, həm də digər Osmanlı dəftərləri barədə məlumat verilmişdir.

Bu sənədlər, həmçinin İrəvanın tarixi və inkişafını araşdıran tədqiqatçılar üçün çox qiymətli bir resursdur. Osmanlı dövründə müxtəlif əyalətlərin idarə edilməsi, əhalinin tərkibi, iqtisadi fəaliyyətlər və vergi sistemi ilə bağlı məlumatlar bu cür mənbələrin əhəmiyyətini artırır. Xüsusilə, İrəvanın sosial və iqtisadi strukturu, əhali sayının dəyişməsi və müxtəlif etnik qrupların varlığı haqqında təqdim olunan məlumatlar həmin dövrün kompleks mənzərəsini anlamağa kömək edir.

Qeyd etmək lazımdır ki, tarixi İrəvan xanlığının yerləşdiyi coğrafiya yalnız siyasi baxımdan əhəmiyyətli bir bölgə olmaqla qalmamış, həm də uzun illər ərzində türk xalqlarının mədəniyyətlərinin inkişaf etdiyi, eyni zamanda bu xalqların tarixlərinin formalaşdığı mühüm bir məkan olmuşdur. Azərbaycan xalqının etnogenezisində əhəmiyyətli rol oynayan qədim tayfalar – hürrilər, kimmerlər, iskitlər, saklar, hunlar, oğuzlar və qıpçaq türkləri məhz bu ərazidə, xüsusən də Göyçə gölü ətrafında yaşamış və burada zəngin tarixi-mədəni izlər qoymuşlar.

XVII əsrin 70-ci illərində məşhur səyyah Evliya Çələbi, "Səyyahətnamə" əsərində İrəvan ərazisinin əhalisinin əksəriyyətinin Azərbaycan türkləri olduğunu qeyd etmişdir [3, s.54]. Həmçinin, 1700-cü ilin yayında İrəvanı ziyarət edən alman səyyahı Kaspar Şillinger də, 1716-cı ildə Nurnberqdə nəşr olunan "İrana və Şərqi Hindistana səfər" əsərində, İrəvan şəhərində sosial və siyasi baxımdan Azərbaycan türklərinin üstünlük təşkil etdiyini qeyd etmişdir [10, s.9]. Bundan əlavə, fransız səyyahı Jan Şarden də "Parisdən İsfahana səfər" əsərində bu regionda yaşayan əhalinin böyük əksəriyyətinin Azərbaycan türkləri olduğunu vurğulamışdır [11, s.21-23].

Bu tarixi məlumatlar İrəvan xanlığının əhalisinin demoqrafik strukturunun əsasən Azərbaycan türklərindən ibarət olduğunu və regionda onların uzun müddət hökmranlıq etdiyini aydın şəkildə göstərir. Bu faktlar, həmçinin, Azərbaycanın İrəvan bölgəsinin tarixən mədəni və etnik baxımdan Azərbaycan xalqının tarixi irsinin ayrılmaz bir hissəsi olduğunu bir daha təsdiq edir.

Türkmənçay müqaviləsi 1828-ci ildə imzalanmış və Azərbaycanın torpaqlarının paralanmasına, xüsusilə də Qərbi Azərbaycan ərazilərinin işğalına səbəb olmuş mühüm bir hadisədir. Bu müqavilə Azərbaycanın Cənubi və Şimali hissələrini ayıran sərhədin təyin edilməsindən və həmin dövrdə baş verən ərazi dəyişikliklərindən sonra Azərbaycan xalqının faciəli tarixinin başlanğıcı hesab edilə bilər. Bu tarix, həmçinin ermənilərin Cənubi Qafqaza, o cümlədən indiki Ermənistan ərazisinə kütləvi axınının başladığı və bu səbəbdən azərbaycanlıların başlarına gələcək çoxsaylı faciələrin – soyqırımlarının, deportasiyaların və digər faciəli hadisələrin təməlini qoymuşdur.

Türkmənçay müqaviləsi ilə bağlı əsas fəlakətlərdən biri ermənilərin bu ərazilərdə yerləşdirilməsi və bunun nəticəsində yerli əhalinin, yəni azərbaycanlıların, öz torpaqlarından sürgün olunması olmuşdur. Bu sürgünlər, həmçinin Qərbi Azərbaycan əhalisinin tarixi-etnik torpaqlarından didərgin düşməsinə və öz yurdlarından qovulmasına gətirib çıxarmışdır.

Bu torpaqlara 1828-ci ildən sonra ermənilərin yerləşdirilməsi ilə bağlı tarixçilər arasında fərqli yanaşmalar mövcuddur. Məsələn, İ. Şopen "yerli ermənilər", V. L. Veliçko isə "gəlmə ermənilər" terminlərini istifadə etmişdir. Bu terminlər, əslində, ermənilərin bu ərazilərdəki tarixini və onların Qərbi Azərbaycana nə zaman gəldiklərini anlamaq üçün istifadə olunub. J. Şopenin əsərinə istinadən aparılan araşdırmalar göstərir ki, indiki Ermənistan ərazisində "yerli ermənilər" çox az sayda olmuş və bu ərazilərə sonradan gələn erməni miqrantları yerli əhalinin üstünə yerləşdirilmişdir [1, s.166]. Bu da öz növbəsində regionda tarixi etnik tərkibin dəyişməsinə səbəb olmuşdur.

Türkmənçay müqaviləsi yalnız Azərbaycanın torpaqlarının paralanması ilə nəticələnməmiş, həm də uzun müddət davam edəcək və bu gün də təsirini göstərən bir sıra sosial və siyasi dəyişikliklərə yol açmışdır. Bu dövr həm də ermənilərin öz dövlətçiliklərini qurmaq üçün Azərbaycan torpaqları üzərində iddialar irəli sürməyə başlamalarının başlanğıcıdır.

Maraqlı və şübhəsiz tarixi əhəmiyyət kəsb edən bir fakt məşhur rus rəssamı V.İ. Maşkovun 1828-ci ildə ermənilərin Şimali Azərbaycan ərazilərinə köçürülməsini xüsusi bir rəsm əsəri ilə təsvir etməsidir. Erməni əhalisinin kütləvi şəkildə bu ərazilərə köçürülməsinə baxmayaraq, çar Rusiyası hakimiyyəti İrəvan xanlığının ərazisində demoqrafik dəyişiklikləri dərhal həyata keçirə bilməmişdir. İrəvan xanlığının işğalını təmin edən rus generalı Paskeviç ermənilərin köçürülməsindən sonra belə, İrəvan bölgəsinin əhalisinin əksəriyyətinin hələ də Azərbaycan türkləri olduğunu etiraf edirdi. Hətta bu faktı göz önündə tutaraq, işğalçı general, əslində, İrəvan bölgəsində yaşayan yerli Azərbaycan

türklərinin hüquqlarını pozmağa, daha az sayda olan erməni əhalisinə üstünlük verməyə çalışmışdır. Beləliklə, erməni arxiyepiskopu Nersesi bu qeyri-ədalətli davranışları səbəbindən İrəvan Müvəqqəti İdarəsinin üzvü olaraq vəzifəsindən azad edilmiş, daha sonra Bessarabiyaya sürgün edilmişdir. Həmçinin, bu siyasətə şərait yaradan İrəvan Müvəqqəti İdarəsinin rəhbəri, general Krasovski də öz vəzifəsindən uzaqlaşdırılmış və Rusiyaya geri göndərilmişdir.

Rusiya tədqiqatçısı N. Şavrov isə 1911-ci ildə aparmış olduğu araşdırmalarda ermənilərin Cənubi Qafqaza köçürülməsi prosesini və onların sayını diqqətlə təhlil etmişdir. O, qeyd edir ki, *"Hazırda Cənubi Qafqazda yaşayan 1 milyon 300 min erməninin əksəriyyəti bu regionun yerli əhalisi deyil. Onlar buraya rusların köçürülməsi ilə gəlmişlər"* [13, s. 63.]. Bu məlumat erməni əhalisinin Cənubi Qafqazda yaranan demoqrafik vəziyyətə təsirinin nə qədər böyük olduğunu və bu köçürülmələrin regiondakı etnik balansı necə dəyişdirdiyini göstərir.

Çar Rusiyası XIX əsrin 20-30-cu illərindən etibarən erməniləri Cənubi Azərbaycan torpaqlarına köçürərək bu regionun əsrlər boyu davam edən etnik, siyasi və dini mənzərəsini zorla dəyişdirməyə başlamışdır. Bu yolla Şimali Azərbaycanın İran və Türkiyə ilə sərhəd bölgələrində Cənubi Qafqaz üçün tamamilə yad bir xristian etnosunun yerləşdirilməsi həyata keçirildi. Rusiya müstəmləkəçiləri bu dəyişiklikləri reallaşdırmaqla yanaşı, Azərbaycan xalqının zəngin dövlətçilik ənənələrini və müstəqillik şüurunu sarsıtmaq məqsədini güdmüşdülər. Bu məqsədlə çar hakimiyyəti tezliklə inzibati-ərazi islahatları həyata keçirərək Azərbaycan xalqının sosial və siyasi strukturunu dəyişdirməyə başladı. 1828-ci ilin 21 martında Azərbaycan xalqının Novruz bayramı günlərində imperator I Nikolayın fərmanı ilə Azərbaycan xanlıqlarından olan İrəvan və Naxçıvan xanlıqları ləğv olundu. Bu ərazilərdə İran və Türkiyədən köçürülən ermənilərin yerləşdirilməsi üçün qondarma bir "Erməni vilayəti" yaradıldı. Bu vilayət yalnız yeni bir idarəetmə strukturunun əsası olmaqla qalmayıb, həm də regiondakı etnik və dini balansın dəyişdirilməsinə xidmət etmişdir. Bu tədbir Cənubi Qafqazdakı Azərbaycan torpaqlarında, xüsusən də İrəvan xanlığının ərazisində erməni dövlətinin qurulmasına doğru atılan ilk addım idi. 1828-ci il ermənilərin köçürülmə kampaniyasının tamamlama dövrünə təsadüf edir və bu zaman "Erməni vilayəti" adlı yeni yaradılmış inzibati strukturda 1125 kəndin 1111-də yalnız Azərbaycan türkləri yaşayırdı. Yəni əhalinin 76.24 faizini azərbaycanlılar, 23.45 faizini isə ermənilər təşkil edirdi [5, s.15].

Azərbaycan xalqının qədim dövlətçilik ənənələrini və müstəqillik şüurunu məhv etmək məqsədilə 1840-cı ildə daha bir mühüm addım atıldı: "Erməni vilayəti" ləğv edildi və onun ərazisində yeni inzibati bölgələr yaradıldı" [7, s.17]. Bu ərazilər arasında İrəvan, Yeni Bayazid, Gümrü, Sürməli və digər bölgələr yer alırdı. 1849-cu ildə isə həmin Azərbaycan torpaqlarında yeni inzibati-ərazi vahidi – İrəvan quberniyası quruldu. Bu yalnız inzibati bir dəyişiklik deyil, həm də ermənilər üçün Qərbi Azərbaycan ərazisində dövlət qurulması məqsədinə yönəlmiş növbəti strateji addım idi. İrəvan quberniyasının yaradılması Çar Rusiyasının Cənubi Qafqazdakı etnik və siyasi mənzərəni öz xeyrinə dəyişdirmək istəyinin bir göstəricisidir. Bu administrativ tədbir, həmçinin, regionda erməni əhalisinin sayını artırmaq və onları yerli Azərbaycan türklərinin qarşısında üstünlük təşkil edən bir güc halına gətirmək məqsədini daşıyırdı. Bu məqsədlə ermənilərin İran və Türkiyədən İrəvan quberniyasına və digər Azərbaycan torpaqlarına köçürülməsi prosesi sürətləndirildi, bu isə həmin ərazilərdəki demoqrafik vəziyyətin daha da dəyişməsinə səbəb oldu. 29 may 1918-ci il Şimali Azərbaycan ərazisində və ümumilikdə Cənubi Qafqazda tarixdə ilk dəfə erməni dövlətinin yaradıldığı gündür. Tarixi faktlara görə Cənubi Qafqazda əvvəlki dövrlərdə heç vaxt müstəqil erməni dövləti olmamışdır. *"İrəvan xanlığının əhalisi Azərbaycan turklərindən ibarət olmuş, hətta xanlığın ərazisinə erməniləri köçürülməsindən sonra belə Azərbaycan türkləri burada üstünlük təşkil etmişlər. Məhz Rusiya imperiyasının qədim Azərbaycan torpağı olan İrəvanın ərazisini xristianlaşdırmaq siyasəti daha sonralar isə Sovet rejiminin Azərbaycana qarşı munasibətdə apardığı ədalətsiz siyasətin, günümüzdə isə Rusiya Federasiyası, ABŞ və qərb dövlətlərinin Ermənistanı himayə etmələrinin nəticəsi olaraq əzəli torpağımız olan İrəvan əra zisində halhazırda Ermənistan Respublikası yerləşir"* [8, s.53].

1947-ci ilin 23 dekabrında ermənilər SSRİ Nazirlər Sovetinin sədri İosif Stalin tərəfindən azərbaycanlıların öz tarixən mənsub olduqları torpaqlardan, xüsusən də Ermənistan Sovet Sosialist Respublikasının ərazisindəki ata-baba yurdlarından zorla çıxarılmasına dair qərarın imzalatılmasına

nail oldular. Nəticə etibarilə, 1948-1950-ci illərdə 100.000-dən çox azərbaycanlı, dağlıq və yaylaq şəraiti ilə tanınan ərazilərindən, mülayim iqlimə malik Azərbaycan SSRİ-nin Mil-Muğan düzünə sürgün edildi. İ.Stalinin imzaladığı qərarda köçürülmə müddəti 1948-1950-ci illər arası müəyyən edilsə də, deportasiya prosesi yalnız bu illərlə məhdudlaşmayıb. Köçürülmə əməliyyatı 1953-cü ilə qədər davam etmiş, bu dövr ərzində daha on minlərlə yerli azərbaycanlı doğma torpaqlarından qovulmuşdur. Bu hadisə sadəcə bir köçürülmə və ya müstəqil bir köç prosesindən ibarət deyil, əslində, Azərbaycanın tarixi və etnik kimliyini silməyə yönəlmiş bir cəhd idi.

Beləliklə, 1918-ci ildə Şimal-Qərbi Azərbaycan ərazisində, xüsusilə keçmiş İrəvan xanlığının torpağında müstəqil dövlət qurmağa müvəffəq olan ermənilər burada etnik azlıq təşkil etmələrinə baxmayaraq, 70 il sonra, yəni 1988-ci ildə Ermənistanı monolit etnik tərkibə malik bir ölkəyə çevirdilər. 1988-ci ildə Ermənistanın müstəqil dövlət olmasından əvvəlki dövrdə Ermənistan ərazisindəki Azərbaycanlıların geniş miqyaslı deportasiyası baş verdi. Bu hadisə, təkcə Azərbaycan xalqının tarixində deyil, bütövlükdə Cənubi Qafqazın siyasi və sosial inkişafında dərin izlər buraxdı. Məhz həmin dövrdən başlayaraq, "Qərbi Azərbaycan" coğrafi məfhumu daha intensiv şəkildə istifadə edilməyə başlandı və bu gün artıq Ermənistan Respublikası coğrafiyasını tamamilə əvəz edir.

Qeyd edək ki, Azərbaycanlıların Ermənistandan deportasiyası 1980-ci illərin sonlarında başlanan etnik münaqişələr və siyasi gərginliklər fonunda baş vermişdir. Sovet İttifaqının son illərində erməni millətçilərinin fəaliyyətləri, xüsusilə Dağlıq Qarabağ münaqişəsinin kəskinləşməsi, bu deportasiyaları və zorakılıqları təhrik etmişdir. 1988-ci ildən sonra Ermənistanın müxtəlif şəhər və kəndlərindən yüz minlərlə Azərbaycanlı zorla qovulmuş, bu proses nəticəsində tarixi torpaqlarında həyatlarını davam etdirən Azərbaycan xalqı məcburi köçkün vəziyyətinə düşmüşdür. Həmin dövrdə Ermənistanın müxtəlif bölgələrindəki Azərbaycanlıların evlərini tərk etməsi və bu ərazilərdən çıxarılmaları, həmçinin mədəni və tarixi irslərinin dağıdılması, bu torpaqların Azərbaycan üçün əhəmiyyətini daha da artırmışdır.

Bu dramatik hadisələrdən sonra "Qərbi Azərbaycan" termini təkcə coğrafi bir məfhum olaraq deyil, həm də tarixi və etnik mənada Azərbaycan xalqının itirdiyi torpaqları ifadə etmək üçün mütəmadi şəkildə işlədilməyə başlandı.

Qərbi Azərbaycan indi Ermənistanın tərkibinə daxil olan İrəvan, Zəngəzur, Gorus, və digər bölgələri, həmçinin həmin ərazilərdə yaşayan Azərbaycanlıların mədəni irsini nəzərdə tutur. Bu termin həmin ərazilərin bir zamanlar Azərbaycanın tərkib hissəsi olması və orada yaşayan Azərbaycanlıların tarixi hüquqlarını əks etdirir. Bundan əlavə, "Qərbi Azərbaycan" coğrafi məfhumu Ermənistanın müstəqil dövlət olaraq formalaşmasından sonra daha da güclənmişdir. Ermənistanın coğrafi sərhədləri daxilində qədimdən bəri Azərbaycan xalqının yaşadığı və mədəniyyətinin inkişaf etdiyi torpaqların itirilməsi, siyasi və hüquqi müstəvidə bir çox mübahisələrə yol açmışdır.

Bu gün Qərbi Azərbaycan adlandırılan coğrafi ərazi yalnız Azərbaycan dövlətinin siyasi məqsədlərini və tarixi hüquqlarını deyil, həm də bir millətin yaddaşında silinməz izlər buraxmış bir mədəniyyətin davamlılığını əks etdirir. Həmin ərazilərdəki azərbaycanlıların deportasiyasından sonra bu torpaqlarla əlaqələr yalnız tarixi və mədəniyyət sahələrində deyil, həm də siyasi və hüquqi müstəvidə mühüm əhəmiyyət kəsb edir. Azərbaycanın beynəlxalq arenada yürütdüyü siyasət Qərbi Azərbaycanın bir zamanlar Azərbaycanın tərkib hissəsi olduğu və bu ərazilərin Azərbaycan xalqına məxsus olduğu fikrini dəstəkləyir.

**Nəticə**

Beləliklə, Qərbi Azərbaycan anlayışı yalnız coğrafi bir termin deyil, həm də tarixi və etnik bir mənada azərbaycan xalqının köçürülmüş və deportasiya olunmuş millətinin geri dönmə haqqını simvolizə edir. Bu coğrafi məfhumun müasir dövrdəki istifadəsi Azərbaycanın beynəlxalq müstəvidəki ərazi mübahisələrində, xüsusən də Ermənistanla olan siyasi münasibətlərində mühüm rol oynamağa davam edir.

## ƏDƏBİYYAT


1. Bayramov, İ. M. Qərbi Azərbaycan: tarixi həqiqətlər və ya Ermənistanın etnik təmizləmə siyasəti. Bakı: Çıraq, 2012. 288 s.
2. Cevat Heyet, Azerbaycan'ın Türkleşmesi ve Azerbaycan Türkçesinin Teşekkülü. Ankara: Ankara Ünversitesi, 2014
3. Çələbi E. Səyahatnamə (Azərbaycan tarixinə aid secmələr). Türk dilindən işləyəni və şərhlərin muəllifi tarix elmləri doktoru, professor Seyidağa Onullahi. Bakı, 1997.
4. Əfəndiyev, O. Azərbaycan Səfəvilər dövləti. Bakı,"Şərq-Qərb". 2007. 344 səh.
5. Əliyev, F. İrəvan Xanlığı / F.Əliyev, U.Həsənov. Bakı, "Şərq- Qərb", 2007.144 səh.
6. İsmayılov, N., Məmmədli, D. Qərbi Azərbaycan tarixinə dair sənəd axınının təşəkkülü və inkişafı // Akademik Tarih ve Düşünce Dergisi, 11 (6), 4483-4496.
7. Mahmudov, Y., Mustafazadə, T., Məmmədov, S. və b. İrəvan Xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi. Bakı: CBS, 2010. 618 s.
8. Məmmədov, İ. İrəvan xanlığının əhalisi, Bakı, Azərbay can Tarixciləri İctimai Birliyi, 2017. 56 s.
9. Miroveli L., Tshovreba, K. Gürcü Tarihi. Tiflis, 1955.
10. Schillinger, Frantz Caspar, Persianische und OstIndianischeReise, welche Frantz Caspar Schillinger mit P. Wilhelm Weber und P. Wilhelm Mayr durch das Turckische Gebiet im Jahr 1699 angefangen und 1702 vollendet, Nurnberg, 1716, s.118.
11. Şarden İ. Səyahətnamə (fransız dilindən tərcumə edən V. Aslanov). Bakı, 1994.
12. Арутюнян П.Г. Освободителное дивижение армянского народа в I четверти XVIII в. Москва: изд-во АН СССР, 1957, с. 4, 9, 10, 89
13. Шавров, Н.Н. Новая угроза русскому делу в Закавказье: предстоящая распродажа Мугани инородцам. СПб., 1911.


***AMEA Nəsimi adına Dilçilik İnstitutu***
***filologiya üzrə fəlsəfə doktoru, dosent***

.

**Elchin Ismayilov**

## GEOGRAPHICAL LOCATION, HISTORICAL POLITICAL DEVELOPMENT, AND PLACE NAMES OF WESTERN AZERBAIJAN

The study of toponyms of the territory of Western Azerbaijan, which is part of our ancient ancestral lands, is one of the most relevant topics today. To study place names and their etymology, it is absolutely necessary to have a thorough understanding of the geographical position and historical-political development dynamics of the region to which the toponyms belong. This is why it is essential to refer to geographical and historical facts in order to study toponyms from a linguistic perspective.

Place names in Western Azerbaijan reflect the long and rich history of the region. These toponyms bear traces of both the Turkic-Muslim culture of the area and the various peoples who lived there. However, during the Soviet period, and especially in modern times, many of these names were changed, and Armenian-language names were substituted for them.

***Keywords:*** *western, place, homeland, Azerbaijan, geographical, political.*

**Эльчин Исмаилов**

## ГЕОГРАФИЧЕСКОЕ ПОЛОЖЕНИЕ, ИСТОРИЧЕСКОЕ И СИСТЕМИЧЕСКОЕ РАЗВИТИЕ ЗАПАДНОГО АЗЕРБАЙДЖАНА И ТОПОНИМЫ

Изучение топонимов территории Западного Азербайджана, которая является частью наших древних земель, на сегодняшний день является одной из наиболее актуальных тем. Для того чтобы изучать географические наименования и их этимологию, необходимо безусловно знать географическое положение и историко-политическую динамику этой территории. Именно по этой причине для исследования топонимов с лингвистической точки зрения необходимо обращаться к географическим и историческим фактам.

Названия населенных пунктов Западного Азербайджана отражают долгую и богатую историю региона. Эти топонимы несут в себе следы как турецко-мусульманской культуры этого региона, так и различных народов, населявших эту территорию. Однако в советский период, а особенно в современную эпоху, многие из этих названий были изменены, и вместо них были введены армянские топонимы.

**Ключевые слова:** *запад, земля, наименование, Азербайджан, географический, политический*

*Filologiya elmləri doktoru Akif İmanlı tərəfindən təqdim edilmişdir*

**İlk daxilolma tarixi: 28.01.2025**
**Son daxilolma tarixi:15.02.2025**